# KİTABXANA İNNOVASIYALARI VƏ MÜASİR DÜNYADA KİTABXANALARIN İNKİŞAFININ PERSPEKTİVLƏRİ

*Xuraman AĞAYEVA*
*Bakı, BDU, khuraman_v@mail.ru*

***Инновации библиотек и перспективы развития библиотек в современном мире***
***Резюме:*** *В статье отмечаются инновационные изменения в библиотеках в современном мире, положительные и отрицательные обновления библиотек которые могут произойти в ближайшем будущем, новые функции которые будут реализованы для традиционных библиотек.*
***Library innovations and prospects of the development of libraries in the modern world***
***Abstract:*** *The article notes innovative changes in the libraries in the modern world, both positive and negative updates of libraries that may occur in the near future, new features that will be implemented for traditional libraries.*

***Açar sözlər:*** *kitabxana innovasiyaları, innovasiya fəaliyyəti, internet, ənənəvi kitabxanalar, regional kitabxanalar, konsorsium*
***Ключевые слова:*** *инновации в библиотеке, инновационный деятельность, интернет, традиционные библиотеки, региональные библиотеки, консорциумы*
***Keywords:*** *innovation in library, innovation activity, the Internet, the traditional libraries, regional libraries, consortium*

**Giriş**

Uzun tarixi inkişaf yolu keçmiş, tarixi təkamül nəticəsində dəyişmiş və sosial institut kimi formalaşmış kitabxanalar bu gün artıq informasiya mərkəzləri kimi formalaşmaqdadır. Kitabxana-biblioqrafiya işinin zaman-zaman inkişafı nəticəsində yeniliklər meydana çıxırdı və sonra bu yeniliklər innovasiya olaraq cəmiyyətdə və sənəd kommunukasiyaları sistemində geniş yayılırdı, zamanla adiləşərək ənənələrə çevrilirdi.

Məsələn, kartoçka kataloqunun ixtirası, bir kitabxananın kitablarının müvəqqəti istifadə üçün başqa kitabxanalara ötürülməsi (KAA), istifadəçilərin seçilməsi və onlara fərqli xidmət göstərilməsi, informasiyanın seçilmiş yayaılması (İSY) sisteminin tətbiqi zamanla çox gözəl innovasiyalar idi. Həmçinin belə innovasiyalar cəmiyyətdə kitabxanaların kitabsaxlayıcı və informasiyanı toplayan və ötürən müəssisə kimi tanınmasına və sevilməsinə səbəb oldu.

XX ortasına qədər kitabxana-biblioqrafiya işində yeniliklərin inkişafı müasir dövrdən fərqlənirdi. Kitabxana işinin tarixində ənənəvi yolun uzun müddətli inkişafı cəmiyyətin, mədəniyyətin, elmin, texnikanın inkişafı ilə bağlı idi. Kitabxanaşünaslıqda və biblioqrafiyaşünaslıqda dəyişikliklərin, yeniliklərin, innovasiyaların tətbiqi müasir dünyada elmi fəallığın artması ilə, yeni texnologiyaların inkişafı və tətbiqi ilə mümkün oldu.



Hal-hazırda iqtisadiyyatda, texnikada və sosial-mədəni sahədə ciddi dəyişikliklər baş verir. Bu müasir kitabxanaların inkişaf mərhələsinin xüsusiyyətlərini, yeniliklərin və innovasiyaların tətbiqini zəruri edir. Buna görə müasir kitabxanaların xarakteristikası üçün yeni innovasiyaların tətbiqinin inkişafı haqqında danışmaq olar.

**Əsas hissə**

Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ədəbiyyatında "innovasiyaların inkişafı" anlayışlarına az rast gəlinir. Bununla belə "innovasiya" və "innovasiya fəaliyyəti" terminlərinin tərifini verməyə çalışaq.

İnnovasiya fəaliyyəti- iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir.

İnnovasiya-yüksək səmərələliyə malik yeniliyin tədbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir.

"İnnovasiya" termin latın dilində "innovato"sözündən olub, "yenilənmə»" və "yaxşılaşma" deməkdir.Termin elmi tədqiqatlarda XIX əsrlərdən işlənməyə başlayıb "Iqtisadi innovasiya" anlayışı XX əsrin əvvəllərində- Avstriya iqtisadçısı Yozef Şumpeterin "The Theory of Economic Development" (1934) əsərindən geniş ictimaiyyətə daxil oldu.

İnnovasiya prosesinin mərhələləri- 1. Fundamental tədqiqatlar; 2.Tətbiqi tədqiqatlar. Fundamental tədqiqatların (yeniliklərin) həyata keçirilmə imkanlarını araşdıran tədqqiqatlardı; 3. İşləmələr. Həmin yeni ideyanın maddi təzahür formasını hazırlamaq deməkdir. 4. Lahiyələşdirmə. Bu mərhələdə yeni qurğunun, cihazın, maşını və.s texnologiyanın texniki dildə təsviri həyata keçirilir. (Rəsmxət, düsturlar, hesablamalar, iqtisadi səmərəlik və s.); 5.Yeni məlumat və ya texnologiyanın yaradılması, inşa edilməsi və s. 6.Yeni məlumatın sınaqdan keçirib mənimsənilməsi; 6.Praktiki, kütləvi, davamlı istehsal. 7.Marketinq – yeni məhsulun bazara çıxarılması və alıcıya çatdırılması; 8. Satış və satışdan sonrakı xidmət. Bu innovasiya prosesi ayrı-ayrı fərdlərin və təşkilatların məşğul olduğu innovasiya fəaliyyətinin məzmununa daxildir. 9.İnnovasiya tsikli. İnnovasiya dövrü innovasiya prosesinin hər hansı bir qapalı məntiqə malik olan bir qismidir. Yəni bu dövrün əvvəlinin və axırının məntiqə bağlılığı var. Məsələn: Fundamental tədqiqatlar və tətbiqi tədqiqatların zənciri innovasiya dövrünü təşkil edir. Eyni zamanda fundamental tədqiqat lar və işləmələr. Bunların üçü də innovasiya tsiklini təşkil edir. Quraşdırma və istehsalat bir tsikl təşkil edir. 10.Sınaq və satış. Sovet dövründə 70-80-ci illərdə elm istehsalat birlikləri yaradılmışdır və onlar tətbiqi tədqiqatlardan başlayaraq sonuncu satış mərhələsinə kimi innovasiya tsiklinin bütün mərhələlərini özündə birləşdirmişdir. Hal-hazırda Azərbaycanda

bu istiqamətdə fəaliyyət göstərən iri təşkilatlar var. Onlardan Ulduz sənaye birliyi azon, fotoelektronika, kosmik tədqiqatlar mərkəzini göstərmək olar.

**İnnovasiyaların növləri- 1.Texnoloji; 2.Ərzaq istehsalı; 3.Təşkilati; 4.Marketinq [wikipedia]**

İnnovasiyaya-sahə mütəxəssislərinin intellektual fəaliyyətinin son nəticəsi kimi baxılır. Bu fəaliyyətin son nəticəsi kimi yeni obyektlərin, məhsulların, texnologiyaların, xidmətlərin, iş üsullarının tətbiqi əvvəlkilərdən yeni xüsusiyyətlərinə və səmərəliliyinə görə fərqlənir".

İnnovasiya fəaliyyəti -elmin, texnologiyanın, təşkilati və ticarət tədbirləri kompleksi olaraq son nəticədə istehsalatda gözlənən effektin alınmasına, innovasiyalarınreallaşdırmasına gətirib çıxarır.

İnnovasiya fəaliyyəti-kitabxananın idarəolunması fəaliyyətinin bir hissəsi olub, kitabxana işinin analizi, yeniliklərin hazırlanması, yayılması və tətbiq etmənin stimullaşdırılmasına, innovasiya düşüncəsinin formalaşmasına, innovasiya mədəniyyətinin yüksəlməsinə, yeni səmərəli iş üsullarının yaradılmasına xidmət edir.

Göstərilən təriflərə əsaslanaraq, innovasiyaların, intellektual fəaliyyətin, yeni obyektlərin sayının artması, yeni səmərəli iş üsullarının yaradılması və innovasiya fəaliyyətinin intensivləşdirilməsiinnovasiyanın inkişafı adlandırılır.

Müasir kitabxanaların inkişafının bir sıra müsbət fərqləndirici xüsusiyyəti var. Müxtəlif kitabxanaların fəaliyyətinin keyfiyyət tempi keçmişdə o qədər əhəmiyyətli dərəcədə fərqlənmirdi. Obyektivlik naminə qeyd etmək olar ki, hal-hazırda bizim ölkəmizdə XIX əsr müəssisələrini xatırladan kitabxanalar mövcuddur və eyni zamanda bütün parametrlərinə görə çox müasir, dünyanın tanınmış kitabxanaları ilə müqayisə oluna biləcək səviyyədə olan kitabxanalar da mövcuddur. Məsələn, ABŞ-da Kennedi, Vaşinqton, Fransada Pompidi, Azərbaycanda H.Əliyev adına Kitabxana informasiya kompleksi, Azərbaycan Respublikası Prezidentinin Prezident Kitabxanası, Qafqaz Universiteti Kitabxanası, Xəzər Universiteti kitabxanası, ADA Universiteti Kitabxanası müasir tipli kitabxanalara misaldır.

Müasir kitabxananın inkişafının tipik xüsusiyyəti ondan ibarətdir ki, bir tərəfdən, o innovasiya texnologiyalarının tətbiqi vasitəsilə vasitəsi ilə dəyişən sosial mühitə və mədəniyyətə uyğunlaşmağa çalışır. Digər tərəfdən informasiyalandırılmış cəmiyyətin tələblərinə uyğun olaraq özü innovasiya texnologiyalarının tətbiqinin obyekti olur və sosial dəyişikliyin və sosial mühitin, mədəniyyətin amili kimi çıxış edir.

XX əsrin 80-90-cı illərində ən mühüm dəyişikliklər texniki təchizatda və kitabxana-informasiya fəaliyyəti texnologiyasında baş verdi. Buna görə də kitabxananı sosial-mədəni və istehsal sferalarınıninformasiyalandırması prosesinin mərkəzi kimi qəbul edirlər. Bu innovasiyalar kitabxana-informasiya fəaliyyətinin sferasınıdəyişdirir, onun yeni növləri və formaları yaranır. Məsələn, komplektləşdirmənin yeni növü kimi skaynerdən istifadə etmə və İnternet-icmallar özü bir forma kimi qəbul edilir. Fəaliyyət sahələri dəyişilir və yeni



sahələr, məsələn, şəbəkə resursları meydana çıxdı və artıq ən müasir texnologiyalar ştrix kod, RFİD texnologiyası və bulud texnolgiyası tətbiq olunmağa başladı.

Yeni texnologiyaların tətbiqi və kitabxanalarda baş verən texniki dəyişikliklər kitabxanada məkan dəyişikliklərini tələb edir. Yeni binalar, kommunikasiyalar, köhnə binaların yenidən qurulması, yeni avadanlıqların əldə olunmasınızəruriləşdirir. Bu dəyişikliklər yalnız texnoloji cəhətdən deyil, həm də mədəniyyət baxımından inkişafa aparır. Bu ona görə əhəmiyyətlidir ki, kitabxanalar, Yeni xidmət formaları, həm real, həm də virtual xidmət sferasını yaratmaqla ifadəçilərin tələbatına informasiyalaşdırılmış cəmiyyətin tələbləri baxımından cavab verməlidirlər. Bir tərəfdən, dəyişmiş istifadəçilər kitabxananı innovasiyalara doğru itələyirlər, digər tərəfdən dəyişən kitabxana genişlənməyə və istifadəçilərin işdə, təhsildə və başqa sferalarda informasiya və mədəni potensialının dərinləşməsinə kömək edir.

Beləliklə, bu gün tətbiq olunan bir innovasiya başqa innovasiyaların da tətbiq olunmasını zəruri edir. Çünki problemlərin tam və kompleks həlli tələb olunur. Bu da kitabxanaların müasir innovasiya inkişafının kompleksliyinə gətirib çıxarır və idarəetmədə sistemliliyi təmin edir.

Son dövrlərdə kitabxana-informasiya sahəsinin idarə olunmasında da əhəmiyyətli dəyişikliklər baş verir. Münasibətlər mərkəzdən-regionlara doğru dəyişir, idarə etmənin regionalizasiyası nəzərə çarpır. Bütün bunlar idarə etmənin və başqa dəyişikliklərin müasir nəzəri və normativ-hüquqi bazasını yaratmağı tələb edir. Kitabxanaların status parametrlərində yeniliklər baş verir. 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə əsasən yeni sahələr-bələdiyyə kitabxanaları, qeyri-kommersiya, qeyri-hökumət təşkilatının və şəxsi kitabxanalarının yaranmasına gətirib çıxarır.

Kitabxana-informasiya sferasının iqtisadiyyatında innovasiyalar maliyyələşdirmədə daha çox nəzərə çarpır. Pullu xidmətlərin inkişafı, sponsorluq, tenderlərdən istifadə və başqa bu kimi maliyyələşdirmə mənbələri yaranır.

Kitabxananın idarəetməsində innovasiyaların tətbiqi mühümdür və gələcək inkişafı parlaq görünür. Artıq bu sahədə strateji və situasiyaların idarəedilməsi, keyfiyyətin idarə edilməsi, biliklərin idarə edilməsi, mədəniyyətinin idarə edilməsi kimi dəyişikliklər baş verir. Həm də bunun fonunda texnologiyaların, normalaşdırmaların, kadr potensialının, insan kapitalının, əmək ehtiyatlarının da yenidən formalaşmasına ehtiyac yaranır.

Bununla bərabər, kitabxanaların cəmiyyətdə rolu və əhəmiyyəti də artır. Kitabxanalar yaxın keçmişə qədər anbarlar kimi, elmi-köməkçi, mədəni-maarif və ideoloji müəssisələr kimi çıxış edirdilər. Hal-hazırda kitabxanalar informasiya, multimediya, mədəni, hüquqi informasiya, ekoloji təhsil, maarif, ailə oxuması mərkəzi, həmçinin mədəniyyətlər arası kommunikasiya, təlim-təhsil, ünsiyyət, intellektal-mərkəzlər kimi cəmiyyətdə özünə önəmli yer tutur.

Kitbxanalarda baş verən yeniliklərə baxmaqla həm ictimai cəhətdən və psixoloji cəhətdən baş verən innovasiyaları görə bilərik.

Kitabxanalarda baş verən dəyişikliklərinin xarakterini onların əsas funksiyalarının analizi bunu daha aydın göstərə bilər. Kitabxanalar sosial yaddaş institutu kimi yarandı, sənədlərin analitik-sintetik işlənməsini və emalını həyata keçirən, kitabın və başqa sənədlərin saxlanılmasını, istifadəsini təşkil edən müəssisə kimi formalaşdı. Əgər bu əsas funksiyalar qalırsa, sosial institutun müəssisələrindən biri kimi- arxivlərlər, muzeylər, böyük informasiya mərkəzləri kimi kitabxanalar da qalır.

Müasir dövrdə də insanlar cəmiyyətin, elmin inkişafı üçün vacib olan qorunmalı, saxlanılmalı və yayılmalı informasiyanı yaradırlar. Kitabxanalar isə əvvəlki kimi ondan müxtəlif məqsədlərlə təlim, təhsil, əyləncə və başqa hədəflər üçün yaradılmış informasiyanı tapmaq və ondan istifadəni təşkil etmək kimi funksiyanı həyata keçirirlər. Ancaq yeni texnologiyaların tətbiqi kitabxanalarda informasiyanın saxlanmasında, qorunmasında, idarə olunmasında və ondandaha səmərəli istifadədə daha mühüm nailiyyətlər əldə etməyə imkan yaradırlar.

Beləliklə, informasiya cəmiyyətinin inkişafı, yeni texnologiyaların tətbiqi yazı, poliqrafiya mədəniyyəti ilə bağlı olan, sənədləri toplayan və mühafizə edən, ondan istifadəni təşkil edən kitabxanaları rəqəmsal texnologiyanın, multimediyanın periferiyasına doğru sıxışdırır və kitabxanalar da istər istəməz yeniləşməyə doğru gedir.

**Nəticə**

İnformasiya sahəsində baş verən dəyişikliklərin, yeniliklərin fonunda kitabxanaların gələcəkdə mümkün inkişafı məqsədilə rus mütəxəssisləri bir sıra nəzəriyyələr və təkliflər irəli sürmüşlər.

Hal-hazırda yığım, saxlama, emal və informasiyanın yaradılması və verilməsi sahəsində məsuliyyətin növbəti, yenidən paylaşdırması, daha açıq desək monopoliyası prosesi baş verir. Buna bir sıra amillər-sənədlərin miqdarının artması və onların yeni növlərinin yaranması, saxlama üçün sahələrin çatışmazlığı, informasiya texnologiyasının inkişafı təsir göstərir.

Vaxtı ilə mədəni müəssisələr saxladıqları sənədlərin növlərinə görə kitablar, şəkillər, əlyazmalar, sikkələr və s.ilə seçilirdi və buna görə də kitabxanalar, arxivlər, muzeylər və s. formalaşırdı. XX əsrin 60-70-ci illərində elmi-texniki informasiyanın xidmətləri meydana çıxdı və bu da kitabxanaların fəaliyyət dairəsinin bir qədər məhdudlaşmasına gətirib çıxardı. İnformasiyalaşdırılmış cəmiyyət şəraitində informasiyanın yeni mərkəzləri yarandı. Həmçinin Azərbaycanda kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafına dair "Dövlət Proqramı"na müvafiq olaraq elektron nəşrlər haqqında məlumatların Ümumazərbaycan fondu "İnformasiya reqistri"nin elmi-texniki mərkəzi yığır, yaradır, emal edir, saxlayır və istifadəsini təşkil edir.

Beləliklə, yığım, emal, saxlama və sənədlərin istifadəsi üçün məsuliyyətin zonası, yeri müəyyən olundu. Bu da mütəxəssislərin fikrincə kitabxanaların, hətta dövlət və mərkəzi regional kitabxanaların tədricən sıxışdırılmasına səbəb olacaq. Əgər kitabxanalar başqa birləşmələr, bir neçə kitabxanalarla, həm də informasiyanın başqa mərkəzləriylə konsorsiumlar çərçivəsində hərəkət edərlərsə, onda onların rəqabətə davamlılığı yüksələ bilər.



Yeni informasiya texnologiyaların tətbiqi əsasında paylanmış kitabxana-informasiya fondu ideyasının reallaşdırması ona gətirib çıxara bilər ki, gələcəkdə bütün kitabxanaları qoruyan olmayacaq, yalnız dövlət və mərkəzi regional, böyük məlumat xidmətləri müəssisələri fəaliyyət göstərə biləcəklər. İri kitabxanalar kiçik kitabxanalardan ənənəvi və elektron sənədlərdən geniş istifadə etmək imkanını alacaqlar. Bu kitabxanaların inkişafının növbəti mərhələsidir.

Müasir dövrdə alış-veriş üçün ən zəngin marketləri seçiriksə, gələcəkdə də insanlar ən zəngin, ən yaxşı kitabxanalardan istifadə edəcəklər, güclülər zəifləri sıradan çıxara bilər.

İnkişafın birinci nəzəriyyəsinə görə rus nəzəriyyəçiləri güman edirlər ki, kitabxananın əsas fəaliyyəti mədəni proqramlar üzrə ünsiyyətin təşkilinə yönəlməlidir. Şəbəkə resurslarından istifadədən başqa, kitabxanalar istifadəçilərinin mədəni fəaliyyətini də təşkil edərək öz fondlarını qoruyub saxlaya bilərlər. Daha səmərəli fəaliyyət göstərmək, işin təsirliliyinin artması üçün kitabxana yerli muzeylə, mədəniyyət müəssisələri ilə öz səylərini koordinasiya yolu ilə birləşdirə, bəzi hallarda sintetik mədəni mərkəzlər yarada bilərlər. Kitabxana işi etnomədəniyyət proqramlarına və ailə yardım proqramlarına yönələ bilər.

Başqa nəzəriyyəyə görə kitabxananın əsas vəzifəsi universal, hüquqi, ekoloji və başqa informasiyanın qorunması, yaradılması, verilməsində və soraq-biblioqrafiya, bibilioqrafik informasiya xidmətlərinin, həmçinin İnternet vasitəsilə xidmətin göstərilməsində, analitik məhsulun yaradılmasındadır. Bu hədəfin reallaşdırması üçün o rabitə texnologiyalarından istifadə edir, xüsusi halda o sferada informasiya işini aparan mütəxəssislərlə iş birliyi qururlar. Kitabxana elektron sənədləri emal edən müəssisələrdən elektron sənədləri fəal sifariş edən və öz fondunda saxlayan müəssisələrə çevrilirlər, informasiya mərkəzi kimi, intellekt-mərkəz kimi fəaliyyət göstərirlər.

Hər iki nəzəriyyədə kitabxanaların mədəni birləşmələrdə iştirakı onun inkişafı üçün əlverişli olduğu görünür. Kitabxanaların inkişafının mədəniyyət və informasiya konsepsiyaları bir-birinə zidd deyil. Onlar sintezləşdirilmiş ola bilərlər, məhz belə sintez milli kitabxanalarda, həmçinin bir çox mərkəzi regional kitabxanalarda həyata keçirilir. Amma bütün kitabxanalar bu nəzəriyyəyə görə başqa yaxınlarla maarifləndirici, multimedia mərkəzi və başqaları ilə inkişaf etmək imkanı qazanmayacaq.

Maliyyələşdirmənin yoxluğundan bəzi MKS-lərin filialları qalacaqlarsa informasiyanı yığan, saxlayan, fondları və xidmət olunan oxucuları xüsusi informasiya brokerlərinə çevirə bilərlər. Tələb olunan sənədləri kitabxana-saxlayıcıdan real zaman rejimi ilə istifadəçilərin sorğularına müvafiq olaraq, maraqlara görə xüsusi klublara, şəkil qalereyalarına, müxtəlif mədəni mərkəzlərə ötürülməsi təşkil oluna bilər. Kitabxana müəssisələri, təşkilatlar, həmçinin ictimailər, bəzi hallarda elektron resurslardan istifadəylə yanaşı, ənənəvi fondu

saxlayacaqlar, amma çoxları elektron kitabxanalar kimi və ya informasiya brokerləri kimi hərəkət edəcəklər, qüvvədə olacaqlar.

Beləliklə, kitabxanaların sayı azalacaq, amma fəaliyyət göstərənlər öz fəaliyyətini diversifikasiya edəcəklər. İnformasiyanın müxtəlif növlərini yığan, emal edən, saxlayan və ötürən müəssisələrin dairəsi genişlənəcək və kitabxanalar onlardan biri olacaq. Ola bilər ki, bu saxlanma müxtəlif daşıyıcılarda nəşrlərin verilməsininspesifikasıylauygun olmalıdır. Belə nəticəyə gəlmək olar ki, kitabxanalar, cəmiyyətin başqa strukturları kimi, bir çox variantlarla innovasiya inkişafının yeni mərhələsindədir və qarşıda bizi çox böyük dəyişikliklər gözləyir.

**İstifadə edilmiş ədəbiyyatın biblioqrafik siyahısı**


1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı//Azərbaycan, 2007, 21 aprel.
2. Azərbaycan Respublikası regionlarının sosial- iqtisadi inkişafı Dövlət Proqramı (2004- 2008-ci illər)// Azərbaycan, 2004, 11 fevral.
3. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. 2008, № 2, s.6-29.
4. Azərbaycan Respublikası regionlarının 2009- 2013-cü illərdə sosial-iqtisadi inkişafı "Dövlət Proqramı". Bakı: Nurlar, 2009, 184 s.
5. Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c./ Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Bakı: Nurlar, 2007, 820 s.
6. Azərbaycanın statistik göstəriciləri. 2009. Bakı: Səda, 2009, 767 s.
7. Астахова Л.В. Библиографиякакнаучныйфеномен: Монография. М., 1977, 283 с.
8. Библиотечная энсиклопедия. М., 2007, 1299 с.)
9. Всемирный саммит по информационному обществу. СПБ, 2004, С.125.
10. Евстигиеева Г.А., Ефимова Э.Н., Крайнова Б.Л. Интернет – для работы библиографа // Научн. и технич. биб.-ки. Москва, 2001, № 11, с.23-28.
11. Исмаилов Н.И.Региональная библиотечно-библиографические ресурсы по медицины: этапы развития, состояние и пути совершенствования: (на матер. Азерб.):Автореф. на соиск. кандпед наук.. М., 1987, 17с.
12. Исмаилов Н.И. Библиотечно-библиографические и информационные ресурсы Азербайджанской Республики: этапы развития, состояние и пути совершенствования. Баку: Мутарджим, 2005.- 300 с.
13.Карташов Н.С.Размещение библиотек:региональный аспект //Библиотека, 2004, №3, с 6-9
14. wikipediya.az